# Xocalıda tarixi ədalət bərpa olundu

**1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycan tarixində silinməz iz qoyan və insanlıq əleyhinə ən ağır cinayətlərdən biri törədildi. Xocalı şəhəri erməni silahlı birləşmələrinin amansız hücumuna məruz qaldı. Bu hücum yalnız hərbi əməliyyat deyil, azərbaycanlılara qarşı həyata keçirilmiş etnik təmizləmə və soyqırımı idi. Xocalıda dinc əhali-qadınlar, uşaqlar, qocalar-erməni silahlıları tərəfindən xüsusi qəddarlıqla qətlə yetirildilər. Törədilən bu faciə təkcə bir şəhərin məhv edilməsi deyildi, bütöv bir xalqın iradəsini sarsıtmağa yönəlmiş terror aktı idi.**

Xocalı hadisələri Azərbaycanın ərazi bütövlüyünə qarşı ağır cinayətlərdən biri olmaqla yanaşı, beynəlxalq ictimaiyyətin uzun illər biganə yanaşdığı soyqırımıdır. Məqsəd təkcə Xocalı şəhərini işğal etmək deyildi, azərbaycanlıları qorxutmaq, onların öz tarixi torpaqlarından qovulmasına zəmin yaratmaq idi. Lakin bu vəhşilik Azərbaycan xalqının iradəsini qıra bilmədi, əksinə, milli birliyə və haqq savaşına səbəb oldu.




Uzun illər beynəlxalq ictimaiyyət bu qətliama yetərincə diqqət ayırmadı. Əsas səbəblərindən biri Ermənistanın yalan informasiyalarla həqiqətləri ört-basdır etməyə çalışması idi. Buna baxmayaraq, Prezident İlham Əliyevin məqsədyönlü və ardıcıl siyasəti nəticəsində Xocalı faciəsi barədə həqiqətlər bütün dünyaya çatdırıldı.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başladılan "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində bu soyqırımı dünyanın müxtəlif ölkələrində parlamentlər, beynəlxalq təşkilatlar və ictimaiyyət tərəfindən tanındı. Xüsusilə Azərbaycanın diplomatik uğurları nəticəsində Pakistan, Meksika, Kolumbiya, Çexiya, Bosniya və Herseqovina, İordaniya və digər dövlətlərin parlamentləri Xocalı faciəsini soyqırımı kimi qəbul etdilər. Bu, təkcə diplomatik müstəvidə deyil, həm də beynəlxalq hüquq çərçivəsində Azərbaycanın haqlı mövqeyinin tanınması baxımından mühüm nailiyyət idi.

Xocalı soyqırımının tanınması istiqamətində ən mühüm addımlardan biri də ABŞ-ın müxtəlif ştatlarının bu faciəni insanlığa qarşı cinayət kimi qəbul etməsidir. ABŞ-ın Texas, Nyu-Meksiko, Arkanzas, Corciya, Oklahoma, Tennessi və Pensilvaniya ştatları Xocalı soyqırımını rəsmən tanıyaraq bu qətliamı pisləyən qətnamələr qəbul ediblər. Xüsusilə Texas ştatının 2017-ci ildə Xocalı faciəsini soyqırımı kimi tanıması Azərbaycan diplomatiyasının böyük uğurlarından biri oldu. ABŞ-ın digər ştatları da zamanla bu məsələyə münasibətdə ölkəmizin haqlı mövqeyini dəstəklədilər.

BMT, ATƏT və digər nüfuzlu beynəlxalq qurumlarda da bu məsələ qaldırıldı və Azərbaycan həqiqətlərinin yayılmasına xüsusi diqqət ayrıldı. İslam Əməkdaşlıq Təşkilatı Xocalı qətliamını soyqırımı kimi tanıyaraq dünya birliyini bu faciəyə hüquqi qiymət verməyə çağırdı. Bunun nəticəsində Avropa və Amerikada bir sıra tədbirlər keçirildi, konfranslar təşkil olundu, Xocalı şahidlərinin ifadələri beynəlxalq media vasitəsilə işıqlandırıldı, çoxsaylı məqalələr və reportajlar yayımlandı. "The Washington Post", "The Guardian", "Le Monde", "Al Jazeera" və "The New York Times" kimi nüfuzlu nəşrlər Xocalı hadisələrinə geniş yer ayıraraq dünya ictimaiyyətini bu faciədən xəbərdar etdilər. Xocalı şahidlərinin ifadələri, qətliam zamanı çəkilmiş fotolar və sənədli filmlər faciənin dəhşətli mahiyyətini üzə çıxardı.

Azərbaycanın xaricdə fəaliyyət göstərən diaspor təşkilatları Xocalı soyqırımının dünyaya çatdırılması üçün genişmiqyaslı kampaniyalar təşkil etdilər. "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində keçirilən mitinqlər, sərgilər və seminarlar beynəlxalq aləmdə Xocalı faciəsinə münasibətdə daha çox həssaslıq yaratdı. Hazırda dünyanın bir çox şəhərlərində Xocalı qurbanlarının xatirəsinə abidələr ucaldılıb. İstanbulda, Berlində, Vaşinqtonda, Haaqada və digər şəhərlərdə Xocalı faciəsini əbədiləşdirən memorial komplekslər tikilib.

Bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan ardıcıl və prinsipial siyasətin nəticəsidir. Azərbaycan dövlətinin Xocalı faciəsinin tanıdılması istiqamətində atdığı addımlar, ilk növbədə, ədalətin bərqərar olması və gələcəkdə belə faciələrin qarşısının alınması baxımından mühüm əhəmiyyət kəsb edir. Xocalı soyqırımının beynəlxalq səviyyədə tanınması Azərbaycanın diplomatik uğurlarından biri olmaqla yanaşı, həm də bu faciəyə hüquqi qiymət verilməsi istiqamətində atılmış tarixi addımdır.

Prezident İlham Əliyevin uğurlu siyasəti sayəsində Azərbaycan diaspor təşkilatlarının fəallığı artırıldı, beynəlxalq tədbirlərdə Xocalı soyqırımı haqqında çıxışlar edildi və faktlar beynəlxalq ictimaiyyətə təqdim olundu. Sosial media platformalarında genişmiqyaslı "Xocalıya Ədalət!" kampaniyası həyata keçirilərək dünyanın müxtəlif ölkələrində aksiyalar təşkil olundu, videoçarxlar, sənədli filmlər və rəqəmsal materiallar vasitəsilə Xocalı həqiqətləri yayılmağa başladı.

Eyni zamanda Vətən müharibəsində qazanılan tarixi Zəfərlə Xocalı faciəsinin qurbanlarının qisası alındı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun bölmələri 44 günlük müharibədə torpaqlarımızı işğaldan azad etdilər. Prezident İlham Əliyevin qətiyyətli diplomatik fəaliyyəti nəticəsində Ermənistanın işğalçılıq siyasətinə son qoyuldu və tarixi ədalət bərpa edildi.

Müharibədən sonra Xocalının yenidən qurulması və şəhərin dirçəldilməsi istiqamətində genişmiqyaslı işlər həyata keçirilir, yeni yollar çəkilir, müasir yaşayış kompleksləri inşa edilir, məktəblər, xəstəxanalar və digər sosial obyektlər tikilir. Bu layihələr şəhərin bərpası ilə yanaşı, həm də Xocalının gələcək inkişafının əsasını qoyur. 2024-cü ilin 28 may tarixində Xocalı 32 il sonra doğma yurdlarına qayıdan xocalılıların sevincinə şahidlik etdi. Böyük Qayıdışın Xocalı səhifəsi açıldı. İşğaldan azad edilən Zəngilan, Füzuli, Laçın kimi Xocalı da sürətlə yenidən qurulur. Prezident İlham Əliyevin rəhbərliyi ilə şəhərdə "yaşıl enerji" və "ağıllı şəhər" konseptləri həyata keçirilir. Burada inşa edilən Xocalı Soyqırımı Memorial Kompleksi həm tarixə hörmət, həm də gələcəyə yönəlmiş addımdır. Bu şəhər Azərbaycanın gücünün və iradəsinin simvoluna çevrilir.

Xocalı faciəsi Azərbaycan xalqının qan yaddaşıdır. Prezident İlham Əliyevin misilsiz xidmətləri nəticəsində bu tarixi faciə dünya ictimaiyyətinin də diqqət mərkəzinə çevrildi. Eyni zamanda, Azərbaycanın güclü siyasəti və diplomatik uğurları Xocalının heç vaxt unudulmayacağını və ədalətin bərpa olunacağını sübut etdi. Bu faciənin qurbanları heç vaxt unudulmayacaq, onların xatirəsi daima əziz tutulacaq.

**Şəbnəm ZEYNALOVA,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru.**